# 20 Yanvar - qanla yazılan azadlıq dastanı

*(əvvəli ötən saylarımızda)*

**Heydər Əliyev dinc və silahsız əhaliyə qarşı tətbiq edilmiş hərbi zorakılığı hüquq, demokratiya və humanizm prinsiplərinə zidd olan ağır siyasi cinayət kimi qiymətləndirmiş, bu hadisəni Moskvanın və respublika rəhbərliyinin məsuliyyətsiz və səhv qərarlarının nəticəsi kimi təqdim etmişdir. Onun çıxışında qəbul olunmuş sənəddə 20 Yanvar faciəsinə görə konkret siyasi və hərbi rəhbərlərin məsuliyyəti açıq şəkildə göstərilmişdir. Həmin sənəddə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.S.Qorbaçov, Sov.İKP MK katibi A.Girenko, SSRİ müdafiə naziri V.Bakatin, Sov.İKP MK-nın məsul işçisi A.Mixaylov, Azərbaycan KP MK-nın birinci katibi Ə.Vezirov, Nazirlər Sovetinin sədri A.Mütəllibov, eləcə də Azərbaycan KP MK-nın büro üzvləri V.Polyaniçko, M.Məmmədov və V.Hüseynov Azərbaycan xalqına qarşı törədilmiş bu siyasi-hərbi təcavüzə görə birbaşa məsuliyyət daşıyan şəxslər kimi göstərilmişdir. Bu mövqe 20 Yanvar hadisələrinə ilk açıq və sistemli siyasi qiymət olmaqla yanaşı, sonrakı dövrdə faciəyə hüquqi-siyasi qiymətin verilməsi üçün konseptual əsas formalaşdırmışdır.**

Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə 1990-cı il yanvarın 22-də çağırılmış Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası faktiki olaraq legitim siyasi rəhbərliyin iştirakı olmadan keçirilmişdir. Respublikanın əsas siyasi və dövlət strukturlarını təmsil edən şəxslərin sessiyada iştirak etməməsi onların baş vermiş hadisələrə görə siyasi məsuliyyətdən yayınmaq niyyətini və xalqın taleyinə münasibətdə passiv mövqe tutduqlarını açıq şəkildə nümayiş etdirmişdir. Bu davranış eyni zamanda, törədilmiş cinayətdə birbaşa və ya dolayı iştirak ehtimalını gücləndirən siyasi fakt kimi qiymətləndirilmişdir.

Fövqəladə sessiyada Bakı şəhərində baş vermiş hadisələrin araşdırılması məqsədilə deputat-istintaq komissiyasının yaradılması barədə qərar qəbul olunmuşdur. Lakin komissiyanın fəaliyyəti hadisələrə hüquqi-siyasi qiymət verilməsi ilə nəticələnməmiş, əsasən ölən və yaralananların sayı, dövlətə, ictimai təşkilatlara və vətəndaşlara dəymiş maddi ziyanın həcmi barədə informasiya toplanması ilə məhdudlaşmışdır.

SSRİ Baş Prokurorluğunun ədliyyə polkovniki V. Medvedyevin rəhbərliyi ilə formalaşdırılmış istintaq qrupu 1990-cı ilin yanvar hadisələri üzrə aparılan araşdırmaları formal və məhdud çərçivədə həyata keçirmişdir. İstintaqın gedişində hərbi qulluqçuların fəaliyyətinə hüquqi qiymət verilməmiş, onların hərəkətlərində cinayət tərkibinin olmadığı barədə əvvəlcədən formalaşdırılmış nəticə əsas götürülmüşdür. Nəticədə, 1990-cı il 20 iyul tarixində cinayət işinə xitam verilməsi haqqında qərar qəbul edilmiş, iş üzrə toplanmış materiallar Moskva şəhərinə, keçmiş SSRİ Prokurorluğuna göndərilmişdir. Həmin dövrdə Azərbaycan Respublikası Prokurorluğu tərəfindən bu hadisələr üzrə ayrıca cinayət işi başlanmamışdır ki, bu da istintaqın obyektiv aparılmamasını şərtləndirən əsas amillərdən biri olmuşdur.

Komissiyanın yekun rəyi yalnız iki il sonra, 1992-ci ildə - SSRİ-nin artıq mövcud olmadığı bir dövrdə Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasına təqdim edilmişdir. Milli Şura isə 20 Yanvar hadisələrinə prinsipial hüquqi-siyasi qiymət vermək əvəzinə, komissiyanın rəyini qənaətbəxş hesab edərək təsdiqləməklə kifayətlənmişdir.









Sonrakı mərhələdə müəyyən edilmişdir ki, 20 Yanvar hadisələri ilə bağlı formalaşdırılmış 100 cildlik istintaq materiallarının 68 cildi Bakıdan çıxarılaraq Moskvaya aparılmış və indiyədək geri qaytarılmamışdır. Bu cildlərdə əməliyyatların planlaşdırılması, qərarların qəbul mexanizmi, hərbi-siyasi rəhbərliyin göstərişləri və icraçı strukturların fəaliyyəti ilə bağlı mühüm sənədlərin mövcud olduğu ehtimal edilir. Xüsusilə qeyd olunan materialların hazırda Rusiya Federasiyası Prokurorluğunun arxivlərində saxlanıldığı barədə məlumatlar mövcuddur.

Sözügedən sənədlərin əldə edilməsi 20 Yanvar faciəsinin real miqyasının, əməliyyatın planlı xarakterinin və bu prosesdə iştirak etmiş siyasi və hərbi rəhbər şəxslərin məsuliyyət dərəcəsinin tam və dəqiq müəyyənləşdirilməsi baxımından həlledici əhəmiyyət kəsb edir. Bu faktlar göstərir ki, istintaqın süni şəkildə yarımçıq saxlanılması və materialların gizlədilməsi hadisəyə beynəlxalq hüquq və cinayət hüququ müstəvisində obyektiv qiymət verilməsinə mane olmuşdur.

Qanlı Yanvar hadisələri təkcə hərbi zorakılıq aktı deyil, eyni zamanda sovet mərkəzinin rus şovinist dairələri ilə erməni millətçi qüvvələrinin uzlaşdırılmış anti-Azərbaycan siyasətinin tərkib elementi olmuşdur. Buna baxmayaraq, tətbiq edilən silahlı güc Azərbaycan cəmiyyətinin siyasi iradəsini sındıra bilməmişdir. Əksinə, 20 Yanvar hadisələri milli azadlıq hərəkatının radikallaşmasına və təşkilatlanma səviyyəsinin yüksəlməsinə səbəb olmuş, nəticə etibarilə dövlət müstəqilliyinin bərpasını sürətləndirən əsas amillərdən birinə çevrilmişdir.

20 Yanvar faciəsinə dövlət səviyyəsində hüquqi və siyasi qiymətin verilməsi prosesi ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə institusional müstəviyə çıxarılmışdır. Onun tövsiyəsi əsasında 1994-cü ilin fevral ayında Azərbaycan Respublikası Milli Məclisinin xüsusi sessiyası keçirilmişdir. Sessiyanın qəbul etdiyi qərarda 1990-cı il yanvarın 20-də Sovet Silahlı Qüvvələrinin Bakı şəhərinə və respublikanın bir sıra rayonlarına yeridilməsi totalitar kommunist rejimi tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilmiş hərbi təcavüz və ağır cinayət aktı kimi qiymətləndirilmişdir. Qərarda xüsusi olaraq vurğulanmışdır ki, silahsız mülki əhalinin kütləvi şəkildə qətlə yetirilməsi xalq hərəkatının zor gücü ilə boğulmasına yönəlmiş planlı əməliyyatın nəticəsi olmuşdur.

Şəhidlərin xatirəsinin dövlət səviyyəsində əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 1998-ci il martın 31-də "20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi haqqında fərman imzalanmışdır. Həmin ilin dekabrın 29-da bu fəxri ada dair Əsasnamə təsdiq edilmişdir. 1990-cı il yanvarın 20-də və sonrakı günlərdə Sovet Silahlı Qüvvələrinin hərbi müdaxiləsi zamanı həlak olmuş 147 nəfərə indiyədək "20 Yanvar şəhidi" fəxri adı verilmişdir. Bununla yanaşı, 20 Yanvar hadisələri zamanı həlak olmuş şəxslərin ailələrinə, itkin düşənlərin yaxınlarına və əlil olmuş vətəndaşlara dövlət tərəfindən hər il birdəfəlik maddi yardım göstərilir. Bu tədbirlər faciənin hüquqi-siyasi qiymətləndirilməsi ilə yanaşı, onun sosial nəticələrinin kompensasiyası baxımından da dövlətin mövqeyini ifadə edir.

Bəli, 1990-cı ilin 20 Yanvar hadisələri zamanı dinc əhaliyə qarşı tətbiq edilmiş hərbi və zorakı tədbirlər yalnız milli qanunvericiliyin deyil, həm də beynəlxalq hüququn ciddi şəkildə pozulması ilə xarakterizə olunurdu. Konkret olaraq:

1.1949-cu ilin Cenevrə Konvensiyaları - bu konvensiyalar mülki şəxslərin münaqişələr zamanı qorunmasını təmin edir. Bakıda baş vermiş hadisələrdə silahsız mülki əhali tanklar, avtomatlar və digər ağır silahlardan hədəf seçilmiş, xəstəxanalar, təcili yardım maşınları və yardım göstərən tibbi personal atəşə tutulmuş, bu isə Cenevrə Konvensiyasının mülki şəxslərin qorunması ilə bağlı müddəalarını kobud şəkildə pozmuşdur.

2. Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsi - Nürnberq və Tokyoda tətbiq edilmiş prinsiplərə görə, hərbi əməliyyatlar zamanı mülki əhaliyə qarşı qəsdən yönəlmiş hücumlar və insanlığa qarşı cinayətlər məsuliyyət daşıyır. Yanvar qırğınları bu prinsipləri pozmuşdur, çünki məqsədli şəkildə silahsız insanlara qarşı qətliam həyata keçirilmişdir.

3. Beynəlxalq İnsan Haqları Bəyannaməsi və digər beynəlxalq aktlar - hər bir fərdin həyat, azadlıq, təhlükəsizlik hüquqları təmin edilməlidir. 20 Yanvar hadisələrində insanların kütləvi qətlə yetirilməsi, yaralanması, həbs və işgəncələrə məruz qalması bu hüquqların kobud şəkildə pozulmasıdır.

Nəticə olaraq qeyd edək ki, 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycan xalqının tarixində həm faciəvi, həm də qəhrəmanlıq səhifəsi kimi qiymətləndirilir. Bu hadisələr yalnız mülki əhaliyə qarşı məqsədyönlü hərbi təcavüz kimi xarakterizə olunmur, eyni zamanda xalqın suverenlik, milli ləyaqət və müstəqillik uğrunda apardığı mübarizənin yüksəklik nöqtəsi kimi də tarixə həkk olunmuşdur.

Yanvar hadisələri sovet siyasi sisteminin böhran vəziyyətini və idarəetmədə hərbi gücə əsaslanan yanaşmanın iflasını açıq şəkildə nümayiş etdirmiş, eyni zamanda SSRİ-nin dağılma prosesini daha da sürətləndirmişdir. Bu hadisələr Azərbaycan xalqının müstəqillik istiqamətində siyasi iradəsinin formalaşmasında həlledici mərhələ olmuşdur.

Ümummilli lider Heydər Əliyevin vurğuladığı kimi, sovet totalitar rejiminin həyata keçirdiyi hərbi təcavüz və qanlı repressiyalara baxmayaraq, Azərbaycan xalqının mənliyi, milli şüuru və qüruru sarsıdılmamış, əksinə, milli qəhrəmanlıq salnaməsinə yeni bir səhifə əlavə olunmuşdur.

20 Yanvar hadisələri xalqımızın azad, suveren və müstəqil yaşamaq hüququnu bütün dünyaya nümayiş etdirdi. Xalqımıza qarşı törədilmiş dəhşətli cinayətlər, ərazi bütövlüyümüzə və suverenliyimizə qarşı planlaşdırılmış hərbi təcavüz, torpaqlarımızın uzunmüddətli işğalına baxmayaraq, Azərbaycan xalqı öz müstəqilliyini qorumağa və ərazi bütövlüyünü bərpa etməyə müvəffəq oldu. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında qəhrəman Azərbaycan Ordusu tərəfindən aparılmış 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabr ayında baş vermiş antiterror əməliyyatları suverenliyimizin tam bərpası ilə nəticələndi.

Üzərindən 36 il keçməsinə baxmayaraq, beynəlxalq hüquqi sənədlərin kobud şəkildə pozulduğu, XX əsrin ən dəhşətli cinayətlərindən biri olan 20 Yanvar hadisələrinə hələ də beynəlxalq hüquqi qiymət verilməmişdir. Beynəlxalq hüquqa əsasən 20 Yanvar faciəsi insanlıq əleyhinə cinayət kimi tanınmalı, onun sifarişçiləri və icraçıları ədalət qarşısında cavab verməlidirlər.

*Gülşən HÜSEYNOVA*
*Azərbaycan Hərb Tarixi Muzeyinin əməkdaşı,*
*ADMİU-nin müəllimi*